Təsdiq edirəm

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri

Qorxmaz Hüseynov

AZƏRBAYCAN RESPUBLİKASI "AZƏRSU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**"I qrup istehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin alınması müraciəti" elektron xidməti üzrə inzibati reqlament**

## 1. Ümumi müddəalar

1.1. **Elektron xidmətin adı**: *"I qrup istehlakçıların(istehsal, xidmət və ticarət məqsədləri üçün istifadə olunmayan fərdi qarajlar, təsərrüfat tikililəri, fərdi yaşayış evləri, bağ və həyətyanı sahələr) su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin alınması müraciəti "*

1.2. **Elektron xidmətin məzmunu:** *I qrup istehlakçılar texniki şərtlərin alınması üçün elektron xidmət vasitəsilə müraciət edə bilərlər.*

1.3.**Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

*"Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanı, ""Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün texniki tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01.05.2014 tarixli 118 nömrəli Qərarı;*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları", həmin qaydalara 1 nömrəli əlavə;*

*"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli 429 nömrəli Fərmanı;*

*"Vətəndaşların müraciətinə baxılması haqqında" Azərbaycan Respublikasının 10 iyul 1997-ci il tarixli Qanunu.*

1.4. **Elektron xidməti göstərən dövlət qurumunun adı:** *"Azərsu"Açıq Səhmdar Cəmiyyəti*

1.5. **Elektron xidmətin digər icraçıları:** *Yoxdur*

1.6. **Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** *Bu sahədə göstərilən xidmət qismən avtomatlaşdırılmışdır.*

1.7. **Elektron xidmətin icra müddəti:** *Nazirlər Kabinetinin 2014-cü il 13 avqust tarixli 275 nömrəli qərarı ilə təsdiq edilmiş "İstehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin verilməsi və qoşulması" Qaydalarına uyğun olaraq imtina halları olmadıqda bu qaydalarda müəyyən olunmuş müddətdə texniki şərtin verilməsi təmin ediləcəkdir.*

R. F

1.8. **Elektron xidmətin göstərilməsinin nəticəsi:** *Müraciət formasında qeyd edilmiş bütün xanalar müraciət edən şəxs tərəfindən lazımi qaydada doldurulduqda, ekranda müraciətin qeydə alındığı barədə təsdiq pəncərəsi açılacaq.*

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. **Elektron xidmətin növü:** *İnteraktiv xidmət*

2.2. **Elektron xidmət üzrə ödəniş:** *Ödənişsiz*

2.3. **Elektron xidmətin istifadəçiləri:** *Texniki şərtləri almaq istəyən I qrup istehlakçılar (istehsal, xidmət və ticarət məqsədləri üçün istifadə olunmayan fərdi qarajlar, təsərrüfat tikililəri, fərdi yaşayış evləri, bağ və həyətyanı sahələr).*

2.4. **Elektron xidmətin təqdim olunma yeri:**

*http://www.azersu.az;*
*https://www.e-gov.az*

2.5. **Elektron xidmət barədə məlumatlandırma:**

*http://www.azersu.az*
*e-mail: office@azersu.az*
*Tel: (012) 431 47 67, 431 47 87*
*Xidmət prosesində yaranan hər hansı bir anlaşılmazlığın aradan qaldırılması, həmçinin metodiki dəstəyin göstərilməsi məqsədilə Cəmiyyətin "Qaynar xətt" xidmətinə (955) müraciət etmək olar.*

2.6. **Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** *Müraciətin qeydiyyata alınması üçün obyektin ünvanını təsdiq edən müvafiq hüquqi sənədin skan olunmuş surəti elektron xidmət istifadəçiləri üçün verilən ekrandan sistemə yüklənməlidir.*

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

3.1. *Elektron xidmətlər istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.*

3.2. **İnteraktiv elektron xidmətlər üçün sorğu:**

3.2.1. **Sorğunun formalaşdırılması** – *İstifadəçi, ona təqdim olunan elektron ünvanda açılan ekranda " I qrup istehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin alınması müraciəti" elektron xidmətini seçərək Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən verilmiş "Elektron imza" kartı, Asan imza, "Elektron Hökumət" sistemi tərəfindən vətəndaşa verilmiş istifadəçi adı və şifrə, Mobil Autentifikasiya Sertifikatı giriş vasitələrindən biri ilə autentifikasiyadan keçdikdən sonra xidmətdən istifadə edə bilər.*

K. F

*Müraciət aşağıdakı məlumatlar daxil edildikdən sonra qəbul edilir :*

*a) Şəxsiyyət vəsiqəsinin fərdi identifikasiya nömrəsinə (FİN) əsasən aşağıdakı məlumatlar göstərilir:*

*- Müraciət edənin soyadı, adı, ata adı*
*- Müraciət edənin qeydiyyatda olduğu ünvan*

*b) Obyekt haqqında aşağıdakı məlumatların daxil edilməsi tələb olunur:*

*- Texniki şərtlərin verilməsi üçün müraciət edilən obyektin təyinatı:*

- *Mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən və aşırımlarının uzunluğu 6 metrdən çox olmayan yaşayış evi - kommersiya məqsədləri üçün istifadə olunmayan*
- *bağ və həyətyanı sahələr - kommersiya məqsədləri üçün istifadə olunmayan*
- *qaraj- kommersiya məqsədləri üçün istifadə olunmayan*
- *təsərrüfat tikililəri - kommersiya məqsədləri üçün istifadə olunmayan*

*- Texniki şərtin verilməsi üçün müraciət edilən obyektin ünvanı;*
*- Texniki şərtin verilməsi üçün müraciət edilən obyektin ünvanını təsdiq edən müvafiq hüquqi sənədin surəti;*

*(Bələdiyyə tərəfindən verilən müvafiq hüquqı sənəd, İcra Hakimiyyəti tərəfində verilən müvafiq hüquqı sənəd, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış və qanunvericilikdə nəzərdə tutulmuş digər sənədlərin hər hansı birinin surəti)*

*- Obyektin ünvanını təsdiq edən hüquqi sənəd müraciət edən şəxsin adına deyilsə etibarnamənin təqdim edilməsi vacibdir.*

*c) Müraciət edən şəxslə əlaqə saxlanılması üçün əlaqə vasitələrinin daxil edilməsi tələb olunur :*

*- Müraciət edənin telefon nömrəsi;*
*- Müraciət edənin elektron poçt ünvanı.*

*Müraciətlə bağlı məlumatın elektron formada alınması istənilirsə işlək elektron poçt ünvanı təqdim edilməlidir.*

*Müraciət edən şəxs tələb olunan məlumatları və sənədləri təqdim etdikdə müraciəti qeydiyyata alınır.*

3.2.2. **Sorğunun qəbulu** - *E-müraciətlər qeydiyyata alınaraq Cəmiyyətin müvafiq struktur vahidinə icraya yönləndiriləcək. Xidmətdən istifadə etmək üçün obyekt haqqında doğru məlumatlar sistemə daxil edilməlidir. Əks halda müraciət etibarsız sayılayacaqdır.*

3.3. **Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

3.3.1. **Sorğunun yerinə yetirilməsindən imtina halları:** *Verilənlər bazası ilə şəbəkə əlaqəsi kəsildikdə və ya məlumat mərkəzlərində aparılan profilaktik tədbirlər həyata keçrildikdə elektron xidmətin göstərilməsində müvəqqəti fasilələr yarana bilər.*

www.e-gov.az *portalında qeydiyyatdan keçməmiş şəxs xidmətdən istifadə edə bilməz.*

*Sənədlərdə uygunsuzluq olduğu təqdirdə, müraciət formasının doldurulmasındakı uyğunsuzluqlar və yanlışlıqlar aradan qaldırılmayanadək müraciət qəbul olunmayacaq.*

K.F

3.3.2.**Sorğunun qəbulu:** *3.3.1-ci bənddə sadalanan hallar istisna olmaqla elektron xidmətin fasiləsizliyi təmin edilir.*

3.4. **Sorğunun icrası:** *Müraciət edən şəxs tələb olunan sənədləri təqdim etdikdə müraciəti qeydiyyata alınır.*

3.4.1. **Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**
*Texniki şərtlərin alınması üçün E-müraciətlər Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a müvafiq olaraq qeydiyyata alınaraq icraya yönləndiriləcək və Azərbaycan Respublikasinin Nazirlər Kabinetinin 13 avqust 2014-cü il tarixli 275 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasinin Nazirlər Kabinetinin "İstehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin verilməsi və qoşulması Qaydaları"-na əsasən əməliyyatların aparılması təmin olunacaq.*
*Elektron xidmətin göstərilməsinə Azərsu ASC-nin "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutu məsuliyyət daşıyır.*

3.4.2. **Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və ya maksimal yerinə yetirilmə müddəti:**
*Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar və uyğunsuzluqlar olduqda, bu barədə müraciət edən şəxsə 3 (üç) iş günündən gec olmayaraq müraciətdə qeyd edilmiş e-mail ünvanı vasitəsilə məlumat verilir. Bu halda "İstehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin verilməsi və qoşulması" Qaydalarında texniki şərtin verilməsi üçün müəyyən edilmiş müddətin axımı dayandırılır. Müraciət edən tərəfindən çatışmazlıqlar və uyğunsuzluqlar aradan qaldırıldıqdan sonra həmin müddətin axımı dayandırıldığı yerdən davam edir. Müraciət edən şəxs tərəfindən çatışmazlıq və uyğunsuzluqlar barədə məlumat alındıqdan sonra 1 (bir) ay müddətində lazımi sənədlərin təqdim edilməməsi "İstehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin verilməsi və qoşulması" Qaydalarına əsasən, texniki şərtlərin verilməsindən imtina üçün əsasdır.*

3.4.3. **İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** Yoxdur.

3.4.4. **Hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası.**
*Müraciətin nəticəsi haqda məlumat elektron poçt və ya telefon vasitəsilə veriləcək.*

3.5. **Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:** *Xidmətin yerinə yetirilməsinə nəzarəti Cəmiyyətin müvafiq struktur vahidi ("Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutu) həyata keçirir.*

3.6. **Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**
*İstifadəçilərin bu elektron xidmətin göstərilməsi üzrə yaranan mübahisələrlə bağlı qanunvericiliyə uyğun olaraq şikayət vermək hüquqları vardır.*

h. F